# "TƏHSİLDƏ KEYFİYYƏT TƏMİNATI AGENTLİYİ" PUBLİK HÜQUQİ ŞƏXSİ

## 31 dekabr 2024-cü il tarixində bitmiş il üzrə Maliyyə Hesabatları və Müstəqil Auditorların Hesabatı

**Mündəricat**

MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNİN BƏYANI 31 DEKABR 2024-CÜ İL TARİXİNDƏ BİTƏN İL ÜZRƏ .......................... 1

MÜSTƏQİL AUDİTORUN HESABATI ........................................................................................ 2

Maliyyə vəziyyəti haqqında hesabat...... .......................................................................................... 3

Mənfəət və ya zərər və digər məcmu gəlirlər haqqında hesabat........................................................ 4

Kapitalda dəyişikliklər haqqında hesabat............................................................................................ 5

Pul vəsaitlərinin hərəkəti haqqında hesabat........... ............................................................................ 6

1. Korporativ məlumat............................................................................................................. 7

2. Əhəmiyyətli uçot siyasətlərinin qısa məzmunu .................................................................. 8

3. Əhəmiyyətli mühasibat təxminləri və fərziyyələri ............................................................. 15

4. Seqment haqqında məlumat................................................................................................ 16

5. Əməliyyat gəlirləri ............................................................................................................ 16

6. Satışın Maya Dəyəri üzrə xərclər ...................................................................................... 16

7. İnzibati xərclər.................................................................................................................... 17

8. Qeyri-maddi aktivlər........................................................................................................... 16

9. Torpaq, tikili və avadanlıqlar.............................................................................................. 17

10. Qısamüddətli debitor borcları ........................................................................................... 17

11. Pul vəsaitləri və onların ekvivalentləri ............................................................................. 18

12. Sair uzunmüddətli öhdəliklər............................................................................................ 19

13. Sair qısamüddətli öhdəliklər.............................................................................................. 19

14. Maliyyə risklərinin idarə edilməsinin məqsədi.................................................................. 19

15. Şərti öhdəliklər .................................................................................................................. 20

16. Hesabat tarixindən sonra baş vermiş hadisələr.................................................................. 21

**"TƏHSİLDƏ KEYFİYYƏT TƏMİNATI AGENTLİYİ" PUBLİK HÜQUQİ ŞƏXSİ**
01.01.2024-cü ildən 31.12.2024-cü ilədək olan dövrün maliyyə hesabatlarının auditinə dair
Rəhbərliyin Məsuliyyəti Haqqında

## HESABAT

**Rəhbərliyin məsuliyyəti haqqında hesabat** "TƏHSİLDƏ KEYFİYYƏT TƏMİNATI AGENTLİYİ" PUBLİK HÜQUQİ ŞƏXSİ

(bundan sonra "Agentlik" adlandırılacaqdır) 31.12.2024-cü il tarixə maliyyə hesabatlarının auditi ilə bağlı rəhbərliyin məsuliyyətini müstəqil auditorların məsuliyyətindən fərqləndirmək məqsədilə hazırlanmışdır.

Rəhbərlik 01.01.2024-cü ildən 31.12.2024-cü ilədək olan dövrün maliyyə-təsərrüfat fəaliyyətini əks etdirən maliyyə hesabatlarının hazırlanmasına görə məsuliyyət daşıyır.

Hesabatları hazırlayarkən Agentliyin rəhbərliyi aşağıdakılara cavabdehdir:

- Müvafiq mühasibat uçotu prinsiplərinin seçilməsi və onun ardıcıl tətbiqinə;
- Ədalətli və düzgün qərarların verilməsinə və qiymətləndirmələrin aparılmasına;
- Agentliyin ilkin maliyyə hesabatlarının hesablama metodu və fasiləsizlik prinsipi əsasında hazırlanmasına;
- Agentliyin ilkin maliyyə hesabatlarının hazırlanması zamanı əsas keyfiyyət xüsusiyyətlərinin, o cümlədən şəffaflıq (aydınlıq), münasiblik, əhəmiyyətlilik, etibarlılıq, düzgün təqdimat, mahiyyətin formadan üstünlüyü, neytrallıq, ehtiyatlılıq, tamlıq və müqayisəlilik xüsusiyyətlərinin nəzərə alınmasına.

Həmçinin rəhbərlik aşağıdakılara görə məsuliyyət daşıyır:

- Agentlikdə effektiv və sağlam daxili nəzarət sisteminin tətbiqinə və məlumatların saxlanılmasına;
- Agentlikdə maliyyə vəziyyətini hər zaman dəqiq açıqlayan mühasibat yazılışlarının dəqiq və düzgün saxlanılmasına;
- Mühasibat yazılışlarının Azərbaycan Respublikasının qanunvericiliyinə və mühasibat uçotu qaydalarına uyğun aparılmasına;
- Saxtakarlıq hallarının, digər səhv və pozuntuların müəyyən edilməsinə və qarşısının alınmasına.

"Təhsildə Keyfiyyət Təminatı Agentliyi" Publik Hüquqi Şəxsi-nin maliyyə-təsərrüfat fəaliyyətini əks etdirən maliyyə hesabatlarının auditinə dair Rəhbərliyin Məsuliyyəti haqqında Hesabatı Agentliyin Rəhbərliyi tərəfindən təsdiq olunmuşdur.

İdarə Heyətinin sədri: ____________________ **Tural Əhmədov Teymur oğlu**

Maliyyə şöbəsi müdirinin müavini, baş mühasib: ____________________ **Aysel İbrahimova Namiq qızı**

## MÜSTƏQİL AUDİTORUN HESABATI

**"Təhsildə Keyfiyyət Təminatı Agentliyi" Publik Hüquqi Şəxsi-nin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərə**

### Rəy

Bizim fikirimizcə, əlavə edilən maliyyə hesabatları Müəssisənin 31 dekabr 2024-cü il tarixinə maliyyə vəziyyətini və həmin tarixdə tamamlanan illər üzrə maliyyə nəticələrini bütün əhəmiyyətli akspektlər baxımından Beynəlxalq Mühasibat Uçotu Standartlarına uyğun olaraq düzgün əks etdirir.

**Auditin predmeti**

Müəssisənin maliyyə hesabatlarına aşağıdakılar daxildir:

- 31 dekabr 2024-cü il tarixində maliyyə vəziyyəti haqqında hesabat;
- Həmin tarixdə tamamlanan il üzrə mənfəət və ya zərər haqqında hesabat;
- Həmin tarixdə tamamlanan il üzrə pul vəsaitlərinin hərəkəti haqqında hesabat
- Həmin tarixdə tamamlanan il üzrə kapitalda dəyişikliklər haqqında hesabat və
- Əsas uçot siyasətlərinin qısa xülasəsi,digər izahedici məlumatlar daxil olmaqla maliyyə hesabatları ilə bağlı qeydlər.

**Rəy üçün əsas**

Biz auditi Beynəlxalq Audit Standartlarına uyğun aparmışıq. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutu auditor rəyinin bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edir.

**Maliyyə Hesabatlarının Hazırlanması üzrə Rəhbərliyin Məsuliyyəti**

Rəhbərlik hazırkı maliyyə hesabatlarının Beynəlxalq Maliyyə Hesabatı Standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə, həmçinin fırıldaqçılıq və ya səhv üzündən əhəmiyyətli təhriflər olmayan maliyyə hesabatlarının hazırlanması üçün rəhbərliyin fikrincə zəruri olan daxili nəzarət sisteminə görə məsuliyyət daşıyır.

**Auditorun Məsuliyyəti**

Bizim məsuliyyətimiz apardığımız audit əsasında həmin maliyyə hesabatları üzrə rəy bildirməkdir. Bu auditi Beynəlxalq Maliyyə Hesabatı Standartlarına uyğun aparmışıq. Həmin Standartlar bizdən etik normalara riayət etməyi, auditin planlaşdırılması və aparılmasını maliyyə hesabatlarında əhəmiyyətli səhvlərə yol verilmədiyinə kifayət qədər əmin olacaq tərzdə həyata keçirməyi tələb edir. Auditə maliyyə hesabatlarındakı məbləğlər və açıqlamalara dair audit sübutunun əldə edilməsi üçün prosedurların həyata keçirilməsi daxildir. Seçilmiş prosedurlar auditorun mülahizəsindən, eləcə də fırıldaqçılıq və ya səhv nəticəsində maliyyə hesabatlarının əhəmiyyətli dərəcədə təhrif edilməsi risklərinin qiymətləndirilməsindən asılıdır. Həmin riskləri qiymətləndirərkən auditor müəssisənin daxili nəzarət sisteminin effektivliyinə dair rəy bildirmək üçün deyil,şəraitə görə müvafiq audit prosedurlarının işlənib hazırlanması məqsədilə müəssisə tərəfindən maliyyə hesabatlarının hazırlanması və düzgün təqdim edilməsi üçün müvafiq daxili nəzarət sistemini nəzərdən keçirir. Bundan əlavə, auditə mövcud uçot siyasətinin uyğunluğunun və rəhbərliyin uçot ehtimallarının əsaslandırılmasının qiymətəndirilməsi, eləcə də maliyyə-vergi hesabatlarının ümumi təqdimatının dəyərləndirilməsi daxildir. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutu auditor rəyinin bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edir.

**Auditor:**

**"İATM AUDIT AND CONSULTING" MMC-nin auditoru İlkin Lələyev Bəxtiyar oğlu**

20 İyun 2025-ci il

Bakı şəhəri.

| | Qeydlər | 31 Dekabr 2024 | 31 Dekabr 2023 |
|---|---|---|---|
| **Aktivlər** | | | |
| ***Uzunmüddətli aktivlər*** | | | |
| Qeyri-maddi aktivlər | 8 | 2 136 | 0 |
| Torpaq, tikili və avadanlıqlar | 9 | 162 361 | 144 116 |
| **Cəmi uzunmüddətli aktivlər** | | **164 497** | **144 116** |
| | | | |
| ***Qısamüddətli aktivlər*** | | | |
| Mal-material ehtiyatları | | 27 431 | 27 600 |
| Qısamüddətli debitor borcları | 10 | 2 500 | 0 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 11 | 1 662 041 | 5 955 094 |
| **Cəmi qısamüddətli aktivlər** | | **1 691 972** | **5 982 694** |
| **Cəmi aktivlər** | | **1 856 469** | **6 126 810** |
| | | | |
| **Kapital və öhdəliklər** | | | |
| ***Kapital*** | | | |
| Digər kapital ehtiyatları | | 276 305 | 276 305 |
| Bölüşdürülməmiş mənfəət | | 254 838 | 433 014 |
| **Cəmi kapital** | | **531 143** | **709 319** |
| | | | |
| ***Uzunmüddətli öhdəliklər*** | | | |
| Sair uzunmüddətli öhdəliklər | 12 | 938 392 | 0 |
| **Cəmi uzunmüddətli öhdəliklər** | | **938 392** | **0** |
| | | | |
| ***Qısamüddətli öhdəliklər*** | | | |
| Sair qısamüddətli öhdəliklər | 13 | 386 934 | 5 417 491 |
| **Cəmi qısamüddətli öhdəliklər** | | **386 934** | **5 417 491** |
| **Cəmi öhdəliklər** | | **1 325 326** | **5 417 491** |
| **Cəmi kapital və öhdəliklər** | | **1 856 469** | **6 126 810** |

İdarə Heyətinin sədri : ____________________ **Tural Əhmədov Teymur oğlu**

Maliyyə şöbəsi müdirinin müavini, baş mühasib: ____________________ **Aysel İbrahimova Namiq qızı**

| | Qeydlər | 2024 | 2023 |
|---|---|---|---|
| Əsas əməliyyat fəaliyyətindən gəlirlər | 5 | 1 245 345 | 1 626 414 |
| Satışın Maya Dəyəri üzrə xərclər | 6 | (1 490 985) | (1 296 248) |
| **Ümumi mənfəət (zərər)** | | **(245 640)** | **330 166** |
| Digər əməliyyat fəaliyyətindən gəlirlər | 5 | 6 028 781 | 6 763 042 |
| İnzibati xərclər | 7 | (5 899 337) | (701 030) |
| Sair əməliyyat xərcləri | | (11 231) | (6 089 997) |
| Məzənnə fərqlərindən zərər | | (50 749) | 0 |
| **Əməliyyat mənfəəti (zərəri)** | | **(178 176)** | **302 181** |
| **Vergidən əvvəlki mənfəət (zərər)** | | **(178 176)** | **302 181** |
| Mənfəət vergisi üzrə xərc | | 0 | 0 |
| **Xalis mənfəət (zərər)** | | **(178 176)** | **302 181** |

İdarə Heyətinin sədri : ____________________ **Tural Əhmədov Teymur oğlu**

Maliyyə şöbəsi müdirinin müavini, baş mühasib: ____________________ **Aysel İbrahimova Namiq qızı**

*Kapitalda dəyişikliklər haqqında hesabat* *Azərbaycan manatı ilə*

| | Digər kapital ehtiyatları | Bölüşdürülməmiş mənfəət | Cəmi |
|---|---|---|---|
| **01 Yanvar 2023 tarixinə qalıq** | **254 282** | **152 856** | **407 138** |
| Səhmdarlar tərəfindən kapital qoyuluşu | - | - | - |
| 2023-cü il üzrə yaranmış mənfəət | 22 023 | 280 158 | **302 181** |
| **31 Dekabr 2023 tarixinə qalıq** | **276 305** | **433 014** | **709 319** |
| 2024-cü il üzrə yaranmış qazanc / zərər | - | (178 176) | (178 176) |
| **31 Dekabr 2024 tarixinə qalıq** | **276 305** | **254 838** | **531 143** |

İdarə Heyətinin sədri : ___________________ **Tural Əhmədov Teymur oğlu**

Maliyyə şöbəsi müdirinin müavini, baş mühasib: ___________________ **Aysel İbrahimova Namiq qızı**

| | Qeydlər | 2024 | 2023 |
|---|---|---|---|
| **Əməliyyat fəaliyyətləri** | | | |
| Büdcədən daxil olan pul vəsaitləri | | 1 911 519 | 1 129 665 |
| Xidmətlərin göstərilməsindən daxil olan pul vəsaitləri | | 1 234 865 | 1 627 673 |
| Təchizatçılara ödənilən pul vəsaitləri | | (5 224 613) | (5 442) |
| İşçilərə ödənilən pul vəsaitləri | | (2 106 104) | (1 926 556) |
| Digər ödənişlərə görə ödənilən pul vəsaitləri | | (51 868) | (6 105 270) |
| **Əməliyyat fəaliyyətlərindən yaranan/(istifadə edilən) xalis pul axını** | | **(4 236 201)** | **(5 279 930)** |
| | | | |
| **İnvestisiya fəaliyyətləri** | | | |
| Əsas vəsaitlərin alışı üzrə pul məxaricləri | | (53 900) | 0 |
| Qeyri-maddi aktivlərin alışı üzrə pul məxaricləri | | (2 952) | 0 |
| **İnvestisiya fəaliyyətlərində istifadə edilən xalis pul axını** | | **(56 852)** | **0** |
| | | | |
| **Maliyyələşdirmə fəaliyyətləri** | | | |
| Səhmdarların kapital qoyuluşlarından daxil olan pul vəsaitləri | | 0 | 0 |
| **Maliyyələşdirmə fəaliyyətlərindən yaranan xalis pul axını** | | **0** | **0** |
| | | | |
| **İl ərzində pul vəsaitləri və onların ekvivalentlərində xalis artım / (azalma)** | | **(4 293 053)** | **(5 279 930)** |
| Dövrün əvvəlinə olan pul vəsaitləri və onların ekvivalentləri | 11 | 5 955 094 | 11 235 024 |
| **Dövrün sonuna olan pul vəsaitləri və onların ekvivalentləri** | | **1 662 041** | **5 955 094** |

İdarə Heyətinin sədri: ____________ **Tural Əhmədov Teymur oğlu**

Maliyyə şöbəsi müdirinin müavini, baş mühasib: ____________ **Aysel İbrahimova Namiq qızı**